# STEAM layihəsini Azərbaycanda öyrənməkdən məmnundurlar



## Elm və təhsil naziri qırğız müəllim və şagirdlərlə görüşüb



Dekabrın 16-da elm və təhsil naziri Emin Əmrullayev ölkəmizdə səfərdə olan Qırğız Respublikasının şagird və müəllim heyətinin iştirak etdiyi STEAM yönümlü təlimlərin gedişatı ilə tanış olub.

Bildirilib ki, təlimlər çərçivəsində Qırğız Respublikasının Nizami Gəncəvi adına 103 saylı məktəbinin və Heydər Əliyev adına 20 saylı məktəb-gimnaziyasının şagird-müəllim heyətinə STEAM təhsili haqqında baza informasiya, layihənin əsas hissəsi olan fənlərin inteqrasiyası öyrədilir. Həmçinin iştirakçılar problem və layihə əsaslı öyrənmə (PBL), 3D modelləşdirmə, mikrobit sisteminə uyğun olaraq kodlaşdırma haqqında biliklər əldə edirlər.

Azərbaycan və Qırğızıstan arasında STEAM çərçivəsində mövcud əməkdaşlığı yüksək qiymətləndirən Emin Əmrullayev bu əməkdaşlığın gələcəkdə davamlı olmasını arzulayıb, iştirakçılara uğurlar diləyib.

Sonra fikirlərini bölüşən iştirakçılar dünyada aktual və müasir olan STEAM layihəsini Azərbaycanda öyrənməkdən məmnun olduqlarını dilə gətiriblər. Ölkəmizin STEAM təcrübəsindən yararlanan nümayəndə heyəti öz ölkələrində burada qazandıqları təcrübəni tətbiq etməyə maraqlı olduqlarını da diqqətə çatdırıblar.

Qeyd edək ki, Qırğız Respublikasının Nizami Gəncəvi adına 103 saylı məktəbinin və Heydər Əliyev adına 20 saylı məktəb-gimnaziyasının 49 nəfərdən ibarət şagird-müəllim heyəti təcrübə mübadiləsi çərçivəsində “STEAM Azərbaycan” layihəsi ilə tanış olmaq məqsədilə Azərbaycanda səfərdədir.

### Qırğız Respublikasının nümayəndə heyətinin səfəri başa çatıb

Qırğız Respublikasının Nizami Gəncəvi adına 103 saylı məktəbinin və Heydər Əliyev adına 20 saylı məktəb-gimnaziyasının şagird-müəllim heyəti ölkəmizə səfər çərçivəsində T. İsmayılov adına 6 nömrəli məktəb-liseyi ziyarət edib. Ziyarət zamanı qonaqlar müəssisənin rəhbərliyi ilə görüşüb, STEAM sinifləri ilə tanış olub, məktəb şagirdlərinin hazırladığı konsert proqramını izləyib.

Daha sonra nümayəndə heyəti ADA Universitetində olub. Qonaqlara universitetin fəaliyyəti, beynəlxalq əməkdaşlığı və tələbələr üçün yaradılan şərait haqqında məlumat verilib.

Dekabrın 18-də nümayəndə heyətinin səfəri başa çatıb.